

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 226 (21.127)

27 noyabr 2014-cü il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 26-da Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ceyms Martin Larsenin etimadnaməsini qəbul edib.

Səfir Ceyms Martin Larsen fəxri qarovul dəstəsinin qarşısından keçdi.

Ceyms Martin Larsen etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Azərbaycan Respublikası ilə Avstraliya İttifaqı arasında yaxşı əlaqələrin mövcud olduğunu vurğulayan dövlətimizin başçısı Avstraliyanın Baş naziri ilə görüşünü və ikitərəfli münasibətlərimizin inkişafı ilə bağlı apardıqları müzakirələri məmnunluqla xatırladı. Prezident İlham Əliyev ölkələrimiz arasında əlaqələrin perspektivləri, qarşılıqlı biznes və investisiya imkanlarının öyrənilməsi istiqamətində işlərin aparılmasının vacibliyini qeyd etdi.

Avstraliya İttifaqının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Ceyms Martin Larsen ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələri müxtəlif istiqamətlərdə, o cümlədən iqtisadi, təhsil və digər sahələrdə inkişaf etdirməkdə maraqlı olduğunu dedi. O, ikitərəfli münasibətlərimizin genişləndirilməsi işində səylərini əsirgəməyəcəyinə əminliyini ifadə etdi.

## Heydər Əliyev Muzeyində növbəti açıq dərs



***Dünən Heydər Əliyev Muzeyində Naxçıvan Özəl Universiteti tələbələrinin iştirakı ilə "Ulu öndər Heydər Əliyev və Azərbaycan" mövzusunda ingilis dilində açıq dərs keçilib.***

Açıq dərsdə ali təhsil müəssisəsinin müəllimi Könül Babayeva ümummilli lider Heydər Əliyevin həyatı və fəaliyyətindən bəhs edərək bildirib ki, Azərbaycan tarixinin 40 ildən çox inkişaf dövrü dahi şəxsiyyət Heydər Əliyevin adı ilə bağlıdır. Fəaliyyətinin bütün dövrlərində ulu öndər Heydər Əliyevin müstəqil Azərbaycan uğrunda tarixi xidmətləri bu gün xalqımızın rahat və azad yaşamasına, ölkəmizin isə dünya dövlətləri sırasında öz layiqli yerini tutan bir ölkəyə çevrilməsinə səbəb olub. Bildirilib ki, ötən əsrin sonlarında imperiyanın məlum çöküşündən sonra Azərbaycan da ağır günlər yaşamağa məcbur olub. Lakin böyük öndərin həmin dövrdə Naxçıvanda yaşayıb fəaliyyət göstərməsi, burada milli dövlətçiliyimizin bərpası üçün atdığı tarixi addımlar çox qısa müddətdə müstəqilliyimizi məhv olmaqdan xilas edib, ölkəmizin gələcək inkişafına zəmin hazırlayıb. Qeyd olunub ki, 1993-cü ildə xalqın təkidli çağırışlarını nəzərə alaraq yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyev torpaqlarımızı bürüyən işğal dalğasının qarşısını alıb, respublikada vətəndaş müharibəsinə son qoyulub, cəbhə xəttində atəşkəs rejimi bərqərar olub. Məhz bu mərhələlərdən sonra Azərbaycanın gələcək inkişafı üçün böyük iqtisadi layihələrin həyata keçirilməsinə başlanılıb. Tarix üçün çox qısa bir dövrdə ölkəmizdə bütün sahələrdə islahatlar aparılıb, ordu quruculuğu özünün yeni inkişaf mərhələsinə qədəm qoyub.

Azərbaycanın, eləcə də onun ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının müasir inkişafının məhz Heydər Əliyev ideyalarına sədaqətin nəticəsi olduğunu vurğulayan mühazirəçi bu siyasi kursun ölkəmizi daha yüksək zirvələrə apardığını tələbələrin diqqətinə çatdırıb.

Sonda tələbələr ulu öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən eksponatlarla tanış olublar.

***Qarabağlar kəndi Kəngərli rayonunun qədim və ən böyük yaşayış məntəqələrindən biridir. Son illər burada həyata keçirilən quruculuq tədbirləri kəndin simasını tamamilə dəyişib.***

## Qədim yaşayış məntəqəsində yeni quruculuq ünvanları

2009-cu ildə 2 nömrəli kənd tam orta məktəbin, kənd mərkəzinin, həkim ambulatoriyasının istifadəyə verilməsi, kəndarası yollara qara örtük salınması bu sahələrdə olan mövcud problemlərin aradan qaldırılmasını təmin edib. "Muxtariyyət ili"ndə yeni quruculuq tədbirlərinə start verilib. Belə ki, hazırda bir neçə ünvanda tikinti işləri aparılır. Onlardan biri 1 nömrəli tam orta məktəb üçün inşa olunan yeni binadır. Zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan məktəb binasının yerləşdiyi ərazi 8 hektara yaxın sahəni əhatə edir. Binada son tamamlama işləri, məktəbin yerləşdiyi ərazidə abadlıq tədbirləri həyata keçirilir.

Qarabağlarda inşa olunan daha bir obyekt isə xidmət mərkəzinin binasıdır. Burada sənaye və təsərrüfat malları mağazaları, ət satışı dükanı, bərbərxana və qadın gözəllik salonu fəaliyyət göstərəcək.

Naxçıvan Muxtar Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Kəngərli Rayon İdarəsinin inşaatçıları öhdələrinə götürdükləri obyektlərin tikintisini keyfiyyətlə və vaxtında başa çatdırmaq üçün əzmkarlıq göstərirlər.

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2014-cü il 20 avqust tarixli "Görkəmli pedaqoq, maarifçi və şair Məhəmməd Tağı Sidqinin 160 illik yubileyinin keçirilməsi haqqında" Sərəncamı ilə təsdiq edilmiş Tədbirlər Planına uyğun olaraq, dünən AMEA Naxçıvan Bölməsində AMEA Naxçıvan Bölməsinin, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin, Yazıçılar Birliyinin, Naxçıvan Dövlət və Özəl universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun birgə təşkilatçılığı ilə "Məhəmməd Tağı Sidqi: həyatı və mühiti" adlı elmi konfrans keçirilib.***

## "Məhəmməd Tağı Sidqi: həyatı və mühiti" mövzusunda elmi konfrans keçirilib



Konfransı giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açıb.

Qeyd olunub ki, 1854-cü ildə Ordubad şəhərində anadan olan Məhəmməd Tağı Sidqi ilk təhsilini buradakı mədrəsədə alıb, klassik Şərq poeziyasını və fəlsəfəsini öyrənib.

Azərbaycanda milli və dünyəvi məktəbin, maarifçilik hərəkatının inkişafına mühüm töhfələr verən, xalq müəllimi kimi böyük şöhrət qazanan Məhəmməd Tağı Sidqi 1892-ci ildə Ordubadda yenitipli "Əxtər" məktəbi yaradıb, 1894-cü ildə Naxçıvanda "Tərbiyə" məktəbinin əsasını qoyub. Bu məktəblər xalqın maariflənməsində mühüm əhəmiyyət kəsb edib, Naxçıvanın bütöv bir ziyalı nəslini yetişdirib.

AMEA Naxçıvan Bölməsi İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun şöbə müdiri, filologiya üzrə elmlər doktoru Fərman Xəlilov "Məhəmməd Tağı Sidqinin həyatı və mühiti" mövzusunda məruzə edib.

Bildirilib ki, Məhəmməd Tağı Sidqi Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında mühüm xidmətlər göstərən görkəmli maarifçi və yaradıcı şəxsiyyət idi. Məhəmməd Tağı Sidqinin ədəbiyyata gəldiyi illərdə Azərbaycanda maarifçilik hərəkatı özünün yüksək zirvəsinə qalxmışdı. Həmin dövrdə Naxçıvan inkişaf edən mərkəzlərdən biri idi. Cəlil Məmmədquluzadə, Hüseyn Cavid, Məhəmməd Tağı Sidqi, Eynəlibəy Sultanov, Hacıağa Fəqir Ordubadi, Məmməd Səid Ordubadi, Əliqulu Qəmküsar, Əbülqasım Sultanov, Mirzə Cəlil Şürbi, Qüdsi Vənəndi və onlarla başqaları məhz həmin mühitin içərisindən çıxmış ziyalılar idilər. XIX əsrin 80-90-cı illərində Naxçıvan ədəbi mühitinin ağsaqqalı və müəllimi olmuş Məhəmməd Tağı Sidqinin çoxcəhətli fəaliyyəti klassik maarifçilərlə yeni maarifçi nəsil arasında varislik körpüsü funksiyasını yerinə yetirib. XIX əsrin 70-80-ci illərində yetişib formalaşan yeni maarifçi nəsil 90-cı illərdən etibarən, müəyyən mənada, Məhəmməd Tağı Sidqinin əməl və ideyalarını müstəqil surətdə davam etdirməklə maarifçilik hərəkatı meydanına atılıb. Milli maarifçiliyin məktəb, dərslik, teatr, ədəbiyyat və mətbuatın inkişafı ilə bağlı ən yaxşı ənənələri bir çox görkəmli ziyalılarla yanaşı, Məhəmməd Tağı Sidqinin adı ilə bağlıdır.

"Məhəmməd Tağı Sidqi və dövri mətbuat" mövzusunda məruzə edən Naxçıvan Dövlət Universitetinin kafedra müdiri, professor Əsgər Qədimov görkəmli pedaqoqun mətbuat sahəsindəki xidmətlərindən danışıb.

"Məhəmməd Tağı Sidqinin lirikası" mövzusundakı çıxışında Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri Asim Yadigar konfrans iştirakçılarının diqqətinə çatdırıb ki, M.T.Sidqi bədii yaradıcılığa ilk gənclik illərindən başlayıb. Bu dövrdə Ordubadda Şeyxəli xan Kəngərlinin təşkil etdiyi "Əncüməni-şüəra" ədəbi məclisi Fəqir Ordubadinin rəhbərliyi ilə fəaliyyət göstərirdi. Fəqir Ordubadi dünyasını dəyişdikdən sonra ədəbi məclisə Sidqi rəhbərlik edib. O, lirik qəzəllərində bədii ifadə vasitələrindən bacarıqla istifadə edirdi. Dilin təmizliyinə, sadəliyinə ciddi diqqət yetirən Sidqi yaradıcılığına Nəsiminin, Füzulinin, Molla Pənah Vaqifin təsiri açıq-aydın görünür.

Naxçıvan Müəllimlər İnstitutunun dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Kamal Camalov "Məhəmməd Tağı Sidqinin yaradıcılığında mənəvi tərbiyə məsələləri" mövzusunda məruzə edib. Bildirilib ki, insanın daxili mənəvi aləminin kamilliyinə yüksək qiymət verən Sidqi elmə, biliyə yiyələnməyi, ədəb və tərbiyəyə, dərsə düzgün münasibət formalaşdırılmasını vacib sayırdı. Təbliğ edirdi ki, uşaqlar vaxtlarını boş keçirməsinlər, ondan səmərəli istifadə edərək oxumaqla məşğul olsunlar.

"Məhəmməd Tağı Sidqinin həyat və fəaliyyətinin orta ümumtəhsil məktəblərində tədrisi" adlı məruzəsində Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi Aparatının rəhbəri Rəşad Xudiyev bildirib ki, Azərbaycan ədəbiyyatının və ictimai fikrinin inkişafında mühüm rolu olan Məhəmməd Tağı Sidqinin həyat və yaradıcılığı bu gün ümumtəhsil məktəblərimizdə gənc nəslə aşılanır. Ümumtəhsil məktəblərində "ədəbiyyat" fənninin tədrisi prosesində Sidqi yaradıcılığı haqqında şagirdlərə ətraflı məlumat verilərək bildirilir ki, Sidqinin çoxşaxəli ədəbi-pedaqoji və elmi fəaliyyəti milli maarifçilik hərəkatı tarixində Seyid Əzim Şirvani dövrünün davamı, eyni zamanda yeni inkişaf dövrünün başlanğıcıdır.

Şagirdlərimizə öyrədilir ki, Məhəmməd Tağı Sidqi ilk dəfə ana dilində milli məktəbin, Naxçıvanda qız məktəbinin əsasını qoyub, publisistik məqalələri ilə və 7 dərsliyin müəllifi kimi Azərbaycan ədəbiyyatının inkişafında böyük rol oynayıb.

Naxçıvan Özəl Universitetinin dosenti, filologiya üzrə fəlsəfə doktoru Nurlana Əliyeva "Məhəmməd Tağı Sidqi və uşaq ədəbiyyatı" adlı məruzəsində görkəmli maarif xadiminin uşaq ədəbiyyatı sahəsindəki fəaliyyətini önə çəkib. Qeyd olunub ki, görkəmli pedaqoq və yazıçının maarifçi bədii əsərləri və pedaqoji yazıları zamanında uşaqların müxtəlif cəhətlərdən inkişafında böyük rol oynayıb və indi də öz əhəmiyyətini itirməyib. Bu əsərlər XIX yüzilliyin əvvəlindən başlanan maarifçi ideyaların həmin əsrin sonunda daha sürətlə intişar tapdığını göstərir. Məktəblərimizdə ana dilində təhsilin genişlənməsində əhəmiyyətli yeri və rolu olan Məhəmməd Tağı Sidqinin uşaq ədəbiyyatı örnəkləri daha çox maarifin, elmin, biliyin təbliği məsələlərinə yönəlib. Onun adı ilə bağlı olan "Əxtər" və "Tərbiyə" məktəblərində həmin məsələlər əyani şəkildə həyata keçirilirdi. Ədibin uşaq hekayələri bədii-pedaqoji xarakter daşıyır. O, yazdığı əsərləri təkcə yazıçı kimi deyil, həm də müəllim olaraq qələmə alıb. Ona görə də həmin əsərlərdə öz işinin ustası olan bir müəllimin şagirdlərinə qayğısı, arzuları əsas yer tutur.

Konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

**Xəbərlər şöbəsi**

# "Heydər Əliyev irsi – əbədiyaşar təlim" monoqrafiyasının təqdimatı olub

AMEA Naxçıvan Bölməsində Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, tarix elmləri doktoru, professor Fəxrəddin Səfərlinin "Heydər Əliyev irsi – əbədiyaşar təlim" monoqrafiyasının təqdimat mərasimi olub. Mərasimi giriş sözü ilə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev açaraq bildirib ki, professor Fəxrəddin Səfərlinin elmi ictimaiyyətin və bütövlükdə, oxucuların diqqətinə təqdim etdiyi bu monoqrafiya Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə hazırlanan əsərlərdəndir. Monoqrafiyada xalqımızın ümummilli lideri Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif məqamlarından bəhs edilir, həmçinin əsərdə muxtariyyət ərəfəsində Naxçıvanda ictimai-siyasi vəziyyət, bu zaman bölgənin erməni işğalından qorunmasında əhalinin rolu, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın blokadasının başlanması, ərazinin tarixi coğrafiyası, milli dəyərlərimiz və sair məsələlər şərh olunur.

AMEA-nın müxbir üzvü Vəli Baxşəliyev monoqrafiya haqqında məlumat verib. Bildirilib ki, müəllif monoqrafiyanın birinci fəslində ulu öndər Heydər Əliyevin həyatı və siyasi fəaliyyətinin bir sıra məqamları, o cümlədən siyasi fəaliyyətinin Naxçıvan dövrünün 22 iyul 1990-3 sentyabr 1991-ci illəri, dahi şəxsiyyətin Azərbaycanı müstəqilliyə hazırlaması və bərpadan sonra müstəqil Azərbaycan dövlətini yaratması, onu qoruyub əbədiləşdirməsi, görkəmli dövlət xadiminin Azərbaycan xalqına qoyduğu irs, Naxçıvanın erməni işğalından xilas edilməsi, milli-mənəvi dəyərlərimizə qayğı, Naxçıvanda tarixçi kadrların hazırlanması, Azərbaycan tarixi məsələləri və Gəmiqaya abidələri haqqında söhbət açıb. Əsərin ikinci fəsli Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr edilib ki, burada muxtariyyət ərəfəsində Naxçıvanın erməni təcavüzündən qorunması, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın blokadaya salınması, habelə muxtariyyətin qazanılmasında böyük rolu olan şəxsiyyətlərdən Behbud ağa Şahtaxtinski haqqında bəhs olunub. Monoqrafiyanın üçüncü fəsli haqqında danışan Vəli Baxşəliyev bildirib ki, bu fəsildə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun bölgə tarixinin müxtəlif problemləri ilə bağlı müxtəlif vaxtlarda imzaladığı sərəncamlar, bu sərəncamların icrası ilə əlaqədar təsdiq olunan Tədbirlər planlarından irəli gələn və qarşıda duran vəzifələrdən bəhs edən məqalələr daxil edilib.

Sonra AMEA-nın müxbir üzvləri Əbülfəz Quliyev və Qadir Qədirzadənin, tarix üzrə fəlsəfə doktorları, dosent Vaqif Məmmədov və dosent Elman Cəfərlinin çıxışları olub.

Tədbirə AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurub.

Səbuhi HƏSƏNOV

***Tarixən şəhər və kənd həyat tərzi bir-birini təqib edən və müəyyən atributlarına görə oxşar, eyni zamanda təzadlı mənzərələrlə dolu və buna görə də həmişə müqayisə predmeti kimi çoxlarının diqqətini çəkən mövzulardan olmuşdur. Doğrudan da, inkişafın insan cəmiyyəti üçün mütləq şərt olduğu bir şəraitdə şəhərin kəndə və öz növbəsində, kəndin də şəhərə həm iqtisadi-mədəni inkişafda, həm sosial-demoqrafik proseslərin idarə olunmasında, həm də tarixə, milli dəyərlərə bağlılıqda verəcəyi çox töhfələr vardır. Cəmiyyət inkişaf etdikcə, şəhər və kənd arasında yaşayış səviyyəsinin aradan qaldırılması kimi məsələlər həll olunduqca kəndlərdə qorunub saxlanılan və xalqın milli kimliyini özündə yaşadan həyat tərzi elementlərinin də dəyəri getdikcə artmaqdadır. Amma o da vardır ki, nədənsə, müasir mədəniyyətə qovuşan şəhərlərin sayı artdıqca əl dəyməmiş təbii gözəlliklərə, qiymətli tarixi zənginliklərə, heç bir restoranda dadmadığımız ləziz yeməklərə, baxımlı əl sənətkarlığı və doyumlu el söhbətlərinə malik kənd həyatı insanı daha çox özünə çəkir.***

*Şəhərləşən kəndlərimiz*

# Nehrəm



İnkişaf sürətləndikcə siması şəhərin naxışları ilə bəzədilən iri kəndlərimiz təkcə belə dəyərlərinə görə deyil, eyni zamanda muxtar respublikamızın sosial-iqtisadi həyatındakı əhəmiyyətinə, sənaye, kənd təsərrüfatı, elm və mədəniyyət, təhsil və səhiyyə sahələrindəki inkişafına görə şəhərlərlə əsl yarışa girib onların hər yöndə uğurlu təqibçisinə çevrilir və bir də baxırsan ki, artıq şəhər dediyimiz bir mərkəz halına gəlirlər. Və bütün bunlar cəmiyyətin ümumi inkişaf karvanında, əhali sayının artması fonunda tamamilə təbii bir prosesdir. Naxçıvan Muxtar Respublikasının müxtəlif rayonlarındakı əhalisi bir neçə min nəfərdən (adətən 5 min) artıq olan, öz yerləşmə mövqeyi və əhəmiyyətinə görə seçilən bir neçə belə iri kəndlərimiz var ki, onlar da gələcəkdə qəsəbə və şəhər olmaq istiqamətində irəliləməkdədirlər. Odur ki, inkişafın bir göstəricisi kimi belə irəliləyişin əsl mahiyyətini öyrənmək, onun müsbət elementlərini daim izləmək və hər yerdə rast gəlinməyəcək bir təcrübə kimi onun öyrənilməsi əhəmiyyətini göstərmək olar.

İri kəndlərimizin inkişafına təsir edən əsas amillər hansılardır? Tarixən öz əhəmiyyətini qoruyub saxlamış belə yaşayış məntəqələrimiz gələcəkdə hansı perspektivlər vəd edir? Və yaxud onların bugünkü sürətli inkişafı ilə muxtar respublikamızın 200-dən artıq digər kənd yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafı arasında hansı oxşar cəhətlər vardır? Güman etmək olar ki, məsələyə bu yöndən kompleks yanaşılma özündə həm kənd, həm də şəhər həyatı elementlərini əks etdirən iri kəndlərimizin həm iqtisadi, həm sosial, həm də mədəni həyatını daha dərindən başa düşməyə imkan verər ki, bu da, öz növbəsində, regional inkişafın bütün aspektləri baxımından çox əhəmiyyətlidir. Bu baxımdan "Şəhərləşən kəndlərimiz" rubrikasında ilk ünvan kimi üz tutduğumuz Babək rayonunun Nehrəm kəndi də təsadüfi seçim deyil.





Nehrəm kəndi özünün bütün bənzərsizliyi və cazibədarlığı ilə yanaşı, həm də muxtar respublikamızın paytaxtı Naxçıvan şəhərinə yaxın olan ən iri yaşayış məntəqəsi, şəhər termini ilə desək, onun peykidir.

Əvvəlcə onu qeyd edək ki, Nehrəm kəndi hazırda təkcə muxtar respublikamızın deyil, eləcə də ölkəmizin iri kənd yaşayış məntəqələrindən biri sayılır. Kəndin yaşayış evləri 500 hektara çatan çox geniş ərazidədir. Ümumiyyətlə isə kəndin 2800 hektarı suvarılan olmaqla, 3600 hektara yaxın əkinəyararlı torpaq sahəsi vardır. Bu yazının ərsəyə gəlməsində həvəslə öz köməkliyini göstərən kənd bələdiyyəsinin sədri, ağsaqqal ziyalı Tofiq Abutalıbovun dediyinə görə, Nehrəm kəndinin 13 min hektar torpaq sahəsi vardır. Əhalisi artıq 15 min nəfərə çatmış Nehrəmdə 3230 təsərrüfat vardır. Qeyd edək ki, kənd müasir dövrdə müxtəlif istiqamətlərdə sürətlə genişlənməkdə, hər il yeni-yeni fərdi evlər tikilməkdədir. Tofiq müəllimin sözlərinə görə, ölkəmizin mərkəz şəhərlərindən, həm də muxtar respublikamızın paytaxtından xeyli sayda nehrəmli həkim, müəllim, dövlət qulluqçusu, sahibkarın sorağı gəlməkdədir. Başqa sözlə, Nehrəm kəndi, onun tarixi keçmişi, bugünkü inkişafı haqqında söhbət açdıqda az qala iyirmi minə yaxın nehrəmlinin müasir həyat tərzi, yaşayış səviyyəsi, ölkəmizin və muxtar respublikamızın inkişafındakı xidmətləri haqqında da danışa bilərik.

Nehrəm Naxçıvan şəhərinə çox yaxındır. Kənd Naxçıvan şəhərindən 9 kilometr, Babək qəsəbəsindən isə cəmi 4 kilometr məsafədə yerləşir. Rayon mərkəzi Babək qəsəbəsindən keçməklə Naxçıvan şəhəri ilə bütün gün ərzində hər 7-15 dəqiqədən bir olmaqla, müntəzəm sərnişin nəqliyyat əlaqələri bu məsafəni daha da yaxın edir.

Nehrəm deyəndə, şübhəsiz, hər birimiz böyük Mirzə Cəlil haqqında düşünürük. Ancaq böyük ədibin hələ yüz il öncəsindən xalqımızın təhsili, maariflənməsi və müasirləşməsi yolunda bu kənddə həyata keçirdiyi ilklərə nəzər saldıqda bunun nahaq yerə Nehrəmdə olmadığına da əmin olursan. Görkəmli tədqiqatçıların əsərlərində sübut olunduğu kimi, adının etimologiyası bəşəriyyətin atası sayılan Nuh Peyğəmbərlə bağlı hesab olunan Nehrəmdə xalqımızın ən qədim mədəniyyətinin izlərinə rast gəlmək olar. Məhz torpağa bağlılıq kimi ən ulu dəyər, ən ali mədəniyyət sonradan bu yaşayış məntəqəsinin daha da böyüməsinə, onu tarixin sınaqlarından üzüağ çıxıb, yadellilərə layiqincə müqavimət göstərən, elinin və xalqının xilaskarına hamıdan qabaq qucaq açıb isti yuvasındakı ən baş kürsüdə əzizləyən sədaqətli Nehrəm oğul və qızlarının doğma yurduna çevirmişdir.

Şübhəsiz, bir məqalədə Nehrəm kimi böyük bir kənd haqqında oxucuları qane edən geniş məlumat vermək çətindir. Kənddən söhbət düşəndə, ilk olaraq, onun keçmişi və bugünkü mənzərəsi ilə yanaşı, adını ölkədə və dünyada tanıdan alim, şair, yazıçı, həkim, müəllim, mədəniyyət işçisi, mühəndislər, müharibə veteranları, Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlər yada düşür. Müxtəlif sahələr üzrə onlarla elmlər və fəlsəfə doktorları, keçmiş SSRİ-nin deputatları və müstəqil Azərbaycanın millət vəkilləri, Əməkdar müəllimlər və görkəmli həkimlər, dövlət qurumu rəhbərləri, Xalq artistləri və sənətçilər, dünya və Avropa çempionatlarının qalibi idmançılar, xeyriyyəçi əməlləri ilə tanınan çox sayda sahibkarlar bu gün nehrəmlilərin haqlarında ağızdolusu danışdıqları həmyerliləridir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyinin hər iki dövründə bu kəndə göstərdiyi diqqət və qayğı və xüsusən 1990-cı ildə Moskvadan Naxçıvana qayıdandan sonra Nehrəmlə əlaqəsi, buradakı tanınmış adamlarla sıx münasibəti, kənd adamları ilə keçirdiyi görüşlər indi də nehrəmlilərin yaddaşından silinməyib. Uzun müddət Naxçıvan Muxtar Respublikasının səhiyyə naziri vəzifəsində çalışmış Əqil Mehdiyev, Hacı Muradəli və Nehrəmin digər görkəmli insanları o dövrdə, ümummilli liderin Naxçıvana rəhbərliyi zamanında – Naxçıvanın ağır blokada illərində dahi rəhbərin tapşırıq və tövsiyələrinin həyata keçirilməsində fədakarlıq göstərmişlər. Bu kənddən Milli Məclisə deputat seçilən ümummilli liderimiz Heydər Əliyev Nehrəmdə o dövrdə mövcud olmuş çətinliklərin aradan qaldırılması üçün çox əmək sərf etmişdir. Nehrəmlilər ulu öndərlə olan görüşlərini, dahi rəhbərin bu kənd üçün etdiklərini daim minnətdarlıqla xatırlayırlar.

Qədim Nehrəm hazırda öz inkişafının intibah dövrünü yaşayır. Naxçıvan Muxtar Respublikasında həyata keçirilən quruculuq proseslərindən böyük pay alan Nehrəm kəndi tarixindən gələn qiymətli ənənələrinə olan bağlılığı fonunda gün keçdikcə daha da müasirləşir. Kənddə son illər ərzində istifadəyə verilmiş sosial-mədəni obyektlər, tikilən yaraşıqlı fərdi evlər, çəkilən hamar yollar getdikcə böyüyən kəndin simasını daha da gözəlləşdirir. Nehrəmdə yaşadılan qədim el adətləri, qeyri-adi ənənələr, burada ağsaqqala olan hörmət, çadralı nənələr, ali məktəblərə yüksək nəticələrlə daxil olan gənc qızlar bu kəndin özünəməxsusluqlarıdır.

**Muxtar respublikamıza gələcək turistlər Nehrəmə də baş çəkmək istəsələr, burada XVIII əsrə aid memarlıq abidəsi İmamzadə binası və Cəlil Məmmədquluzadənin xatirə muzeyi ilə yanaşı, kənd üsulu ilə hazırlanmış daş küftəsi, möv dolması, əriştə aşı, təndir lavaşı, çölmək pitisi, sac lavaşı, təndir kababı kimi milli yeməklərimizdən dadmaq imkanı əldə edərlər. Türk xalqlarına məxsus qış azuqəsi olan qara qovurmadan, məclislərdə çoban kirmidi ətirli bozbaşı lavaş doğramasıyla minbir şükürlə yemək üçün Nehrəmdə olmağına dəyər: Nehrəmdə hər kəsin qapısı qonağa açıq, süfrəsi ruzilidir. Nurəddin Babayev və Elman Həbibin "Nehrəm və nehrəmlilər" kitabında deyildiyi kimi: "Şükürlər olsun Yaradana ki, həmişə nehrəmlilərin arzusunu çin eyləyir".**

**Şəhərləşən Nehrəm kəndi bu gün necə yaşayır?..**

*ardı var*

Əli CABBAROV

## Enerji resurslarından səmərəli istifadə günün tələbidir



Dövlətin böyük qayğısı və diqqəti nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunub. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. Ona görə də hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir.

Bu fikirlər dünən Naxçıvan Şəhər Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan şəhərinin Əliabad qəsəbəsində tikintiyə dair ümumi tələblərlə, həmçinin enerji resurslarından səmərəli istifadə ilə bağlı maarifləndirici tədbirdə səsləndirilib.

Tədbiri Naxçıvan Şəhər İcra Hakimiyyətinin şöbə müdiri İsmayıl Gülməmmədov açıb.

Tədbirdə Naxçıvan şəhər prokurorunun müavini, I dərəcəli hüquqşünas Qalib İsmayılov "Enerji resurslarının talanması məsuliyyətə səbəb olur" mövzusunda məruzə ilə çıxış edərək qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə sakinlərə ətraflı məlumat verib.

Sonra Naxçıvan şəhər prokurorunun köməkçisi, II dərəcəli hüquqşünas Elçin Ələkbərov "Tikintiyə dair ümumi tələblər" mövzusunda çıxış edib. Qeyd olunub ki, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin 79-cu və 80-ci maddələrində tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin tikintisinin aparılması qaydaları və tikintiyə başlamaq üçün məlumatlandırma icraatının qaydaları öz əksini tapıb. Qanunun ayrı-ayrı maddələri barədə sakinlərə ətraflı məlumat verən Elçin Ələkbərov vurğulayıb ki, tikintisinə icazə tələb olunmayan tikinti obyektlərinin tikintisinin aparılması üçün adıçəkilən Məcəllənin 80-ci maddəsində məlumatlandırma icraatının qaydası nəzərdə tutulub. Belə ki, mərtəbələrinin sayı 3-dən, hündürlüyü 12 metrdən və aşırımlarının uzunluğu 6 metrdən çox olmayan yaşayış evlərinin tikintisi ilə bağlı məlumatlandırma icraatı həyata keçirilir və onların tikintisi üçün tikinti layihəsinin yalnız memarlıq-planlaşdırma bölməsinin hazırlanması tələb olunur.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

Xəbərlər şöbəsi

*“Yol mədəniyyət, iqtisadiyyat, bir sözlə, həyat deməkdir”, – deyən ümummilli liderimiz Heydər Əliyevin ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıdışından sonra yaradılan sabitlik və iqtisadi inkişaf ölkə iqtisadiyyatının tərəqqisində mühüm rol oynayan avtomobil yollarının bərpası və yenidən qurulmasına əlverişli şərait yaradıb. Bu istiqamətdə işlər ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilməkdədir.*

# Yol infrastrukturu yenilənir



“Azərbaycan Respublikasında avtomobil yolları şəbəkəsinin yeniləşməsinə və inkişafına dair (2006-2015-ci illər) Dövlət Proqramı”na uyğun olaraq, ölkəmizdə, o cümlədən muxtar respublikamızda yol-nəqliyyat kompleksinin yeniləşməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində kompleks tədbirlər həyata keçirilir. 88 kilometrlik Naxçıvan-Sədərək, 34 kilometrlik Naxçıvan-Culfa və 88,8 kilometrlik Naxçıvan-Şahbuz-Batabat magistralı, 8 kilometrdən artıq uzunluğa malik Naxçıvan dairəvi avtomobil yolu, uzunluğu 39 kilometr olan Təzəkənd-Çalxanqala-Qıvraq dairəvi avtomobil yolu, uzunluğu 57 kilometr olan Çeşməbasar-Boyəhməd və uzunluğu 25,6 kilometr olan Hacıvar-Sirab-Vayxır avtomobil yolu yenidən qurularaq istifadəyə verilib. Təkcə bir faktı qeyd edək ki, son 19 ildə muxtar respublikamızda 3221 kilometr uzunluğunda yeni avtomobil yolu salınıb ki, bu da 1924-1995-ci illər ərzində salınmış 1320 kilometr uzunluğunda avtomobil yollarından 2,4 dəfə çoxdur. Cari ildə də yol infrastrukturunun yenidən qurulması mühüm əhəmiyyətli sahə kimi diqqət mərkəzində saxlanılıb.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkətinin Baş direktoru Bəhruz Əsgərov bizimlə söhbətində qeyd etdi ki, yol təsərrüfatının yenidən qurulmasında əsas amil olan keyfiyyətli asfalt istehsalı üçün möhkəm zəmin yaradılıb, müasir avadanlıqlarla təmin olunmuş yeni asfalt-beton zavodları, qum-çınqıl karxanaları və bitum anbarları istifadəyə verilib. Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan Yol İstismar idarələrinin maddi-texniki bazası möhkəmləndirilib, şirkət istehsal olunan asfaltın vaxtında yerlərə çatdırılması və asfalt-beton örtüyünün keyfiyyətlə salınmasında mühüm rol oynayan müasir mexanizmlərlə təmin olunub. Bu da, təbii ki, genişmiqyaslı quruculuq tədbirləri həyata keçirilən muxtar respublikamızda yol infrastrukturunun yenidən qurulmasına əlverişli şərait yaradıb.

Naxçıvan Muxtar Respublikası Avtomobil Yolları Dövlət Şirkəti və onun tabeliyində olan Yol İstismar idarələrinin kollektivləri cari ildə də respublika və yerli əhəmiyyətli yollarda əsaslı və cari təmir işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün mövcud imkanlardan maksimum səmərəli istifadə etməyə səy göstərib. Naxçıvan şəhərinin Qaraçuq kənd dairəvi avtomobil yolunda su keçidləri salınıb, yol əsası bərkidilib, yola asfalt-beton örtük salınıb.

Şərur rayonunda daxili avtomobil yollarında cari təmir işləri aparılıb, Püsyan kəndinə gedən avtomobil yoluna su keçidləri salınıb, suaparıcı kanal çəkilib, giriş avtomobil yoluna asfalt-beton örtük salınıb. Dizə-Axura kənd avtomobil yolu yenidən qurulub, Axura kənd avtomobil yolunun 2,7 kilometrinə yeni asfalt örtük salınıb, əsaslı təmir işləri aparılıb. Yol boyu 266 metr uzunluğunda beton kanal çəkilib, 2 körpü əsaslı, 1 körpü isə cari təmir olunub, 16 su keçidi tikilib. Kürkəndə giriş avtomobil yoluna su keçidi salınıb, suaparıcı kanal çəkilib, yol əsası bərkidilib, yola asfalt-beton örtük verilib. Bundan başqa, Diyadin kəndi ərazisində 1580 metr, Tumaslı kəndi ərazisində 600 metr məsafədə kənddaxili avtomobil yollarına asfalt-beton örtük salınıb, 340 metrlik beton kanal və 8 su keçidi tikilib.

Babək rayonunda da daxili avtomobil yollarında cari təmir işləri aparılıb, Qoşadizə-Babək avtomobil yolu yenidənqurma işləri aparılaraq genişləndirilib, borular salınıb, yol əsası bərkidilib. Həmçinin Yarımca-Qahab-Nəcəfəlidizə-Naxışnərgiz avtomobil yolu yenidən qurulub, yol yatağı genişləndirilib. Hərəkət hissəsinin eni 8 metr, uzunluğu 14,5 kilometr olan yola asfalt-beton örtük salınıb, 4 selötürücü, 75 suötürücü tikilib, yolun kənarı boyunca 1211 metr məsafədə kanal çəkilib. Nəcəfəlidizə kəndinin giriş avtomobil yolunda 8 paqonometr uzunluğunda körpü inşa olunub.

Culfa rayonunda daxili avtomobil yollarında və Culfa-Ordubad, Nəhəcir və Darıdağ Arsenli Su Müalicəxanasına gedən avtomobil yollarında cari təmir işləri, Əbrəqunus-Teyvaz avtomobil yolunda səthi emal işləri aparılıb. Dizə-Gal-Şurud avtomobil yolunda təmir işləri davam etdirilir.

Ordubad şəhərində şəhərdaxili avtomobil yolunda cari təmir və asfalt-beton işləri görülüb, Aşağı Əylis kənddaxili avtomobil yollarında təmir işləri aparılıb, 1250 metr məsafədə asfalt-beton örtük salınıb.

Ərazisi dağlıq və dağətəyi zonadan ibarət olan Şahbuz rayonunda şəhərdaxili avtomobil yollarında su keçidləri salınıb, rayondaxili avtomobil yollarında, Sələsüz və Külüs-Keçili kənd avtomobil yollarında təmir işləri aparılıb. Gömür kəndindəki daxili avtomobil yolunda isə yenidənqurma işləri həyata keçirilib. Qarababa-Mahmudoba-Nursu avtomobil yolu yenidən qurularaq asfalt-beton örtük salınıb.

Keyfiyyətli asfalt-beton istehsalı da diqqət mərkəzində saxlanılıb, cari ilin ötən dövründə 82 min 85 ton asfalt-beton istehsal olunub. Həyata keçirilən kompleks tədbirlər öz bəhrəsini verib, regionumuzda mövcud olan 274 kilometr dövlət əhəmiyyətli, 1199 kilometr isə yerli əhəmiyyətli avtomobil yollarında hərəkətin intensivliyinin təmin olunmasına əlverişli şərait yaradılıb.

2014-2015-ci ilin payız-qış mövsümünə hazırlıqla əlaqədar kompleks tədbirlər həyata keçirildiyini bildirən Bəhruz Əsgərov onu da vurğuladı ki, leysan yağışları zamanı və soyuq qış mövsümündə avtomobil yollarında hərəkətin intensivliyinin təmin edilməsi məqsədilə bütün texnikalar saz vəziyyətə gətirilib. Fəhlə və mexanizatorlar mövsümlə əlaqədar iş paltarları ilə təmin olunublar. Ümumilikdə, 10 ədəd avtoqreyder, 24 ədəd özüyükünboşaldan avtomaşın, 20 ədəd buldozer, 1 ədəd qumsəpən avtomaşın, 2 ədəd ekskavator, 1 ədəd qarsovuran mexanizm, 4 ədəd yükləyici ekskavator və 4 ədəd avtoyükləyici muxtar respublikamızın ayrı-ayrı rayonlarının, ucqar dağ və sərhəd kəndlərinin avtomobil yollarında yarana biləcək hər hansı maneənin vaxtında aradan qaldırılması üçün tam hazır vəziyyətdədir. Həmçinin avtomobil yollarının buzdan təmizlənməsində mühüm rol oynayan qum tədarükü də diqqət mərkəzində saxlanılıb, Şorsu massivindən xammal daşınaraq Naxçıvan Asfalt-Beton Zavodunda qurulmuş qum-çınqıl karxanasında üyüdülərək ehtiyat yaradılıb.

*Həyata keçirilən kompleks tədbirlər onu deməyə əsas verir ki, qarlı-çovğunlu günlərdə istər magistral, istərsə də rayon mərkəzlərini ucqar dağ və sərhəd kəndləri ilə birləşdirən yerli əhəmiyyətli yollarda hərəkətin intensivliyi operativ surətdə təmin ediləcəkdir.*

✍ **Kərəm HƏSƏNOV**

# Yaxın gələcəkdə muxtar respublikanın enerjiyə tələbatı bərpa olunan enerji mənbələri hesabına ödəniləcək

***Enerji təminatı məsələləri bəşəriyyətin qlobal problemlərindən biridir. Bu problemlərin həlli hər bir regionun özünəməxsus xüsusiyyətlərindən asılıdır.***

1992-ci ildə Braziliyanın Rio de Janeyro şəhərində dünya ölkələrinin ekoloji təmiz enerji ilə təchiz edilmələrinin inkişafı haqqında qəbul edilmiş qərarın müddəalarından birinin əsasını “tədricən ənənəvi yanacaqların yandırılmasından alınan enerjidən alternativ (bərpa olunan) enerji mənbələrinin (Günəş, su, külək, biokütlə, yeraltı istilik və sair) enerjiyə keçilməsi” təşkil edir.

Dünyada sərf olunan enerjinin 90 faizdən çoxu ənənəvi yanacaqların payına düşür. Ənənəvi yanacaq ehtiyatlarının azalması, xammalın səmərəsiz işlədilməsi və eləcə də ətraf mühitin çirklənməsi vəziyyəti daha da ağırlaşdırır.

Bu amillər və enerjiyə tələbatın daim artması yeni – alternativ (bərpa olunan) enerji mənbələrinin tapılması tələbini ortaya çıxarır. Bərpa olunan enerji mənbələrinin müsbət cəhəti ondan ibarətdir ki, ondan istifadə zamanı enerji balansı tükənmir.

Naxçıvan Muxtar Respublikasında böyük miqdarda bərpa olunan enerji mənbələri vardır. Muxtar respublikada ən mühüm məsələlərdən biri bərpa olunan enerji mənbələrinin enerjisindən istifadə etməklə enerji təhlükəsizliyinin təmin edilməsidir.

Naxçıvan Muxtar Respublikası üçün ən perspektivli və üstünlük təşkil edən enerji mənbəyi tükənməz, bərpa olunan enerji mənbələridir. Ona görə də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 1 sentyabr 2014-cü il tarixli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nda “muxtar respublikada alternativ enerjidən istifadə metodlarının tətbiqi və araşdırılmasının davam etdirilməsi” və “...alternativ və bərpa olunan enerji mənbələrindən istifadənin genişləndirilməsi” maddələri öz əksini tapmışdır.

Naxçıvan Muxtar Respublikası ərazisində bərpa olunan enerji mənbələrindən istifadə edilməsi hesabına enerji potensialının inkişaf etdirilməsi böyük perspektivə malikdir. Hazırda Naxçıvan Muxtar Respublikası ərazisində bərpa olunan enerjinin inkişafının əsas istiqamətlərindən biri Günəş enerjisinin elektrik enerjisinə çevrilməsidir. Buna görə də gələcəkdə regionda Günəş şüalarının enerjisindən istifadə edilməsi üçün əsas diqqəti Günəş şüalarının enerji potensialının qiymətləndirilməsinə yönəltmək lazımdır.

Naxçıvan Muxtar Respublikasında il ərzində günəşli günlərin uzunluğu 2900-3000 saat təşkil edir. Günəşdən gələn radiasiya qismən atmosferdə səpələnir və göy qübbəsindən yerə səpələnmiş radiasiya şəklində gəlir. Muxtar respublikada il ərzində birbaşa radiasiyanın qiyməti yüksək dağlıq ərazilərdə 156 kkal/sm², Araz çayı vadisində 48 kkal/sm² -ə bərabərdir. Radiasiya balansı gündüzlər mart ayından noyabr ayınadək müsbət, dekabr ayından fevral ayınadək mənfi qiymətə bərabər olur.

Muxtar respublika ərazisində Günəş enerjisinin bərpa olunan enerji mənbələri arasında ən perspektivli olduğunu deyə bilərik. Naxçıvan Muxtar Respublikasında Günəş enerjisindən geniş istifadə olunmasına maneə ancaq onun dağlıq ərazidə yerləşməsidir. Bu maneəni isə yeni texnologiyaların tətbiqi ilə asanlıqla aradan qaldırmaq olar və bu istiqamətdə aparılan araşdırmalar öz bəhrəsini verməkdədir. Alınmış nəticələr onu deməyə imkan verir ki, Naxçıvan Muxtar Respublikası ərazisində Günəşin tükənməz enerjisindən istifadə etməklə kifayət qədər ucuz enerji hasil etmək mümkündür.

Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan alternativ enerji mənbələrindən biri də çayların enerji ehtiyatlarıdır. Naxçıvanın hidroenerji potensialından səmərəli istifadə olunur. Son illər tikilib istifadəyə verilən Heydər Əliyev Su Anbarı üzərindəki Su Elektrik Stansiyası, “Biləv”, “Arpaçay-1” və “Arpaçay-2” Su Elektrik stansiyaları muxtar respublikanın enerjiyə olan tələbatının ödənilməsində mühüm rol oynayırlar. Hazırda Ordubad Su Elektrik Stansiyasının tikintisi uğurla davam etdirilir.

Naxçıvan Muxtar Respublikası ərazisində mövcud alternativ enerji mənbələrindən biri olan küləyin enerji ehtiyatları tükənməzdir.

Yer atmosferinin Günəş tərəfindən qeyri-bərabər qızdırılması zamanı atmosferdə temperatur fərqi yaranır; bu temperatur fərqindən əmələ gələn hava kütləsinin hərəkətinə külək deyilir. Hələ eramızdan əvvəl insanlar külək enerjisinin mexaniki enerjiyə çevrilməsinin çox sadə üsullarını bilirdilər (yel dəyirmanı, su quyuları, yelkənli gəmilər və sair). XIX əsrin axırlarında – 1890-cı ildə dünyada ilk dəfə olaraq Danimarkada birinci külək elektrik stansiyası quraşdırıldı.

Külək elektrik stansiyalarının üstün cəhətlərindən biri də burada faydalı qazıntılardan istifadə edilməməsidir. Əgər 1 Mvt gücə malik külək elektrik generatorunu 20 il işlətsək, bu, 29000 ton daş kömürə və ya 18000 ton neftə qənaət etmək deməkdir. 1 Mvt gücə malik külək elektrik generatoru 1 ildə 1800 ton karbon qazının ($CO_2$), 9 ton kükürd qazının ($SO_2$), 4 ton azot oksidinin atmosferə buraxılmasının qarşısını alır.

Naxçıvan Muxtar Respublikası ərazisində külək enerjisindən istifadə edilməsi ucuz, tükənməyən elektrik enerjisi ixracına imkan yaradar.

Naxçıvanın yerləşdiyi coğrafi mövqe onu bir-birləri ilə qarşılıqlı təsirdə olan iki hava axınından: şimaldan gələn (şimal, şimal-qərb və şimal-şərq) arktik mənşəli soyuq hava axını və cənubdan gələn (cənub və cənub-qərb) tropik mənşəli isti hava axınından asılı edir. Bu hava kütlələrinin hərəkəti nəticəsində Naxçıvan Muxtar Respublikasının hüdudlarında əlahiddə xüsusiyyətə malik hava axını cərəyan edir.

Culfa şəhəri yaxınlığında, Araz vadisinin geniş hissəsində olan hava kütləri onun ensiz olan hissəsindən çıxmağa can atdığı zaman güclü qasırğalı yerli küləklər əmələ gəlir.

Naxçıvan Muxtar Respublikasının rayonlarında küləyin enerji ehtiyatlarının qiymətləndirilməsi üçün küləklərin orta illik sürətlərinə uyğun olaraq, rayonları zonalara bölmüşük: birinci ən çox küləkli zonaya Culfa şəhəri, Ordubad rayonu, Şahbuz rayonu, ikinci küləkli zonaya Naxçıvan şəhəri, Şahbuz şəhəri, Ləkətağ kəndi, Haçadağ (Culfa rayonu) və Gərməçataq kəndi (Babək rayonu), üçüncü küləkli zonaya Şərur, Sədərək və Kəngərli rayonları daxildir.

Araşdırmalar nəticəsində müəyyən olunmuşdur ki, Naxçıvan Muxtar Respublikasının ərazisində küləyin enerjisindən istifadə etməklə uzaq dağlıq ərazilərdə yerləşən yaşayış yerlərinin, kənd təsərrüfatı obyektlərinin və sairlərin stasionar qaydada enerji ilə təchizat problemlərini həll etmək olar.

Bərpa olunan enerji növlərindən biri də Darıdağ geotermal sularının enerjisidir. Darıdağ termal sularını praktik olaraq aşağıdakı məqsədlər üçün istifadə etmək olar:

– *elektrik enerjisi hasilatında qızmış su kimi;*

– *kommunal obyektlərin istiliklə təmin olunmasında termal su kimi;*

– *müalicə məqsədi ilə kimyəvi elementlərin qatışığından ibarət olan su kimi;*

– *sənaye üçün kimyəvi duzlar şəklində xammal kimi.*

Darıdağ arsen mənşəli geotermal mineral su mənbəyi ən qiymətli mənbə sayılır. Hələ qədim dövrlərdən başlayaraq Darıdağ geotermal mənbələrin isti su və buxar qarışığı dağ süxurlarının çatlarından təbii yolla yerin səthinə çıxaraq ulu babalarımız tərəfindən müalicə məqsədləri üçün istifadə olunurdu. Haliyədə qazma quyusu vasitəsilə dərinlikdən yerin üstünə çıxarılmış Darıdağ geotermal suyunun temperaturu 52 dərəcə, minerallaşması 14 qr/litr, bir gün ərzində bir quyudan çıxan suyun miqdarı (debit) 4,5 milyon litrdir.

Aparılmış tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, Naxçıvan Muxtar Respublikası ərazisində mövcud olan bioloji resursların enerjisindən istifadə edilməsi iqtisadi baxımdan sərfəli deyil.

Bütün bunların praktik olaraq həyata keçirilməsi üçün bərpa olunan enerji mənbələrindən kompleks şəkildə istifadə imkanları öyrənilmiş və istehlakçıların stasionar qaydada enerji ilə təmin olunmaları üçün bərpa olunan enerji mənbələrinin əsasında müasir tələblərə cavab verə bilən enerji sistemlərinin yerləşdiriləcəkləri yerlər seçilmişdir.

Beləliklə, aparılan tədqiqatlar bizə Naxçıvan Muxtar Respublikasında bərpa olunan enerji mənbələrinin böyük ehtiyatlarının olduğunu və bu enerjidən istifadə edilməsinin iqtisadi cəhətdən sərfəli olduğunu deməyə əsas verir. Bütün bunlar nəzərə alınaraq muxtar respublikamızda bərpa olunan alternativ enerji mənbələrindən istifadə edilməsinə ciddi diqqət yetirilir. Bu il noyabrın 24-də Günəş enerjisindən istifadə olunması məqsədilə Naxçıvana dəvət olunmuş Belçikanın “Soltehc” şirkətinin nümayəndələri ilə muxtar respublikanın bu sahə üzrə mütəxəssisləri arasında müzakirələr aparılaraq perspektivlər nəzərdən keçirilib, Günəş enerjisindən istifadə üzrə yeni innovativ layihələrin imkanları qiymətləndirilib.

Muxtar respublikamızın enerjiyə olan ehtiyacının bərpa olunan enerji mənbələri hesabına ödənilməsi üçün belə layihələrin tətbiqi gələcəkdə böyük perspektivlər vəd edir.

**Məhbub KAZIMOV**
***AMEA Naxçıvan Bölməsinin elmi işçisi***

# Seçki marafonu

Bələdiyyə seçkiləri – 2014

**23 dekabr 2014-cü il Azərbaycan Respublikasında bələdiyyə seçkiləri günüdür.**

**Hörmətli seçicilər!**

Müvafiq seçki komissiyası imza vərəqələrini və namizədin qeydə alınması üçün lazım olan digər sənədləri qəbul etdikdən sonra 7 gün müddətində namizədin qeydə alınıb-alınmaması barədə əsaslandırılmış qərar qəbul etməlidir.

**Qeydə alınmış bütün namizədlər bərabər hüquqa malikdirlər və bərabər vəzifələr daşıyırlar.**

Dövlət orqanlarında işləyən və ya bələdiyyə qulluğunda olan və ya kütləvi informasiya vasitələrində əmək və mülki hüquq müqaviləsi əsasında işləyən qeydə alınmış namizədlər seçki kampaniyasında iştirak etdikləri müddətdə xidməti vəzifələrini yerinə yetirməkdən azad olunurlar (bu qayda Azərbaycan Respublikası Prezidentinə, Milli Məclisin deputatlarına və bələdiyyə üzvlərinə şamil edilmir), müvafiq əmrin (sərəncamın) təsdiq edilmiş surətini qeydiyyat günündən ən geci 3 gün ərzində onları qeydə almış seçki komissiyasına təqdim edirlər; ***onlar öz vəzifə və xidməti mövqeyindən imtiyaz qazanmaq və üstünlük əldə etmək məqsədilə istifadə edə bilməzlər.***

**Dövlət vəzifələrində olan qeydə alınmış namizədlər öz vəzifə mövqelərindən üstünlük əldə etmək üçün istifadə edə bilməzlər.**

Seçki Məcəlləsində aşağıdakılar vəzifə mövqeyindən və ya xidməti mövqedən üstünlük əldə etmək üçün sui-istifadə olunması kimi başa düşülür:

- tabelikdə və ya digər xidməti asılılıqda olan dövlət və bələdiyyə qulluqçuları sayılan şəxsləri iş vaxtı namizəd irəli sürülməsinə və ya seçilməyə kömək göstərən fəaliyyətə cəlb etmək;
- bütün namizədlər və ya qeydə alınmış namizədlər dövlət orqanlarının, yaxud bələdiyyə orqanlarının yerləşdiyi binalardan eyni şərtlərlə istifadə edə bilmədikləri halda bu binalardan namizəd irəli sürməyə və ya seçilməyə kömək göstərən fəaliyyətlə məşğul olmaq üçün istifadə etmək;
- dövlət orqanlarının, təşkilatlarının, bələdiyyə qurumlarının fəaliyyətini təmin edən rabitə, informasiya, telefon vasitələrindən imzaların toplanması və seçkiqabağı təşviqat üçün istifadə etmək;
- namizəd irəli sürülməyə və ya seçilməyə kömək üçün dövlət və ya bələdiyyə mülkiyyətində olan nəqliyyat vasitələrindən pulsuz və ya güzəştli şərtlərlə istifadə etmək (yuxarıda göstərilən hallar dövlət mühafizəsi barədə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq nəqliyyat vasitələrindən istifadə edən şəxslərə aid edilmir);
- dövlət və ya bələdiyyə qulluqçularını xidməti ezamiyyət zamanı imza yığılmasına və ya seçkiqabağı təşviqata cəlb etmək;
- Seçki Məcəlləsinin 77.1-ci maddəsində göstərilən kütləvi informasiya vasitələrindən güzəştli şərtlərlə imza toplanması və ya seçkiqabağı təşviqat məqsədilə istifadə etmək.

Namizədlər, namizədi irəli sürmüş siyasi partiyalar, siyasi partiyaların blokları və onların səlahiyyətli nümayəndələri, habelə təsisçiləri, mülkiyyətçiləri, sahibləri göstərilən şəxslər və təşkilatlar olan hüquqi şəxslər və onların xahişi və ya tapşırığı ilə hərəkət edən digər fiziki və hüquqi şəxslər seçki kampaniyasının gedişində xeyriyyə fəaliyyəti ilə məşğul ola bilməzlər.

Göstərilən şəxslərin və təşkilatların digər fiziki və hüquqi şəxslərə maddi və maliyyə yardımı etmək, seçicilərə və ya təşkilatlara maliyyə yardımı, maddi yardım və ya xidmət göstərmək təklifi ilə müraciət etməsi qadağandır. Fiziki və hüquqi şəxslərin siyasi partiyalar, siyasi partiyaların blokları, onların səlahiyyətli nümayəndələri və ya namizədlər adından, yaxud onların müdafiəsi məqsədilə xeyriyyə fəaliyyəti ilə məşğul olması qadağandır.

Dövlət vəzifələrində olan qeydə alınmış namizədlərin yalnız öz vəzifələrini icra etməkdən azad olunduğu vaxtda seçkiqabağı təşviqat aparmaq hüququ vardır. Qeydə alınmış namizəd Seçki Məcəlləsinin 81-ci maddəsinə uyğun olaraq, televiziya və radio verilişlərinin pulsuz efir vaxtından istifadəetmə hallarına bu qaydalar şamil edilmir.

Vəzifəli şəxslər, teleradio verilişləri və kütləvi informasiya vasitələri redaksiyalarında işləyən jurnalistlər və yaradıcı işçilər qeydə alınmış namizəddirlərsə, yaxud qeydə alınmış namizədlərin, siyasi partiyaların, siyasi partiyalar bloklarının vəkil edilmiş şəxsləri və ya səlahiyyətli nümayəndələridirsə, seçkilərin gedişinin kütləvi informasiya vasitələri ilə işıqlandırılmasında iştirak etmək onlara qadağan edilir.

Qeydə alınmış namizədlər, siyasi partiyalar, siyasi partiyaların blokları, siyasi partiyaların, siyasi partiyalar bloklarının müvafiq olaraq vəkil edilmiş şəxsləri və səlahiyyətli nümayəndələri, qeydə alınmış namizədlərin vəkil edilmiş şəxsləri, göstərilən şəxslərin təsisçisi, sahibi, üzvü və ya işçisi olduğu təşkilatlar, göstərilən şəxslərin və ya təşkilatların tapşırığı ilə hərəkət edən digər fiziki və hüquqi şəxslər xeyriyyə fəaliyyəti ilə məşğul ola bilməzlər. Göstərilən şəxslərin və təşkilatların fiziki və hüquqi şəxslərə, seçicilərə maddi və maliyyə, yaxud digər xidmətlər göstərmək təklifi ilə müraciət etməsi qadağandır. Namizədlərin, qeydə alınmış namizədlərin, siyasi partiyanın, siyasi partiyalar blokunun, onların səlahiyyətli nümayəndələrinin və vəkil edilmiş şəxslərinin adından və onların müdafiəsi üçün fiziki və hüquqi şəxslərin xeyriyyə fəaliyyəti ilə məşğul olması qadağandır.

Qeydə alınmış namizədin işlədiyi, qulluq etdiyi, oxuduğu, hərbi xidmətdə olduğu və ya hərbi xidmət keçdiyi dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının müdiriyyəti, hərbi hissənin komandiri müvafiq seçki komissiyasında namizədin qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək ərizəsində və ya raportunda göstərilən müddət üçün onu işdən, tədrisdən, xidmətdən ödənilməyən məzuniyyət verilməsi əsasında istənilən gün və vaxt azad etməlidir.

Seçki Məcəlləsinin 70.1-ci maddəsində göstərilən müddətdə qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının onların vəzifəli şəxslərinin təşəbbüsü ilə işdən, xidmətdən, təhsil müəssisəsindən çıxarıla bilməz və ya razılığı olmadan başqa işə, başqa yerdə işləməyə (oxumağa, xidmət keçməyə) keçirilə bilməz, habelə ezamiyyətə göndərilə bilməz, hərbi xidmətə və ya toplanışa çağırıla bilməz. Qeydə alınmış namizədin seçkilərdə iştirakı müddəti qeydə alındığı gündən başlayaraq işlədiyi ixtisas üzrə əmək stajına daxil edilir.

Qeydə alınmış namizəd qeydə alındığı gündən seçkilərin nəticələrinin rəsmi dərc edildiyi günədək müvafiq prokurorun razılığı olmadan, namizəd kimi qeydə alındıqdan sonra törətdiyi əməllərə görə cinayət məsuliyyətinə cəlb edilə bilməz, tutula bilməz və məhkəmə qaydasında müəyyənləşdirilən inzibati tənbeh tədbirlərinə məruz qala bilməz. Qeydə alınmış namizəd cinayət başında yaxalanarsa, tutula bilər. Belə razılıq verildikdə və ya qərar qəbul edildikdə müvafiq prokuror və ya məhkəmə namizədin qeydə alındığı seçki komissiyasını bu barədə dərhal xəbərdar edir.

Qeydə alınmış namizəd, siyasi partiyanın, siyasi partiyalar blokunun səlahiyyətli nümayəndəsi müvafiq dairə seçki komissiyasından hüdudları, ünvanı və telefonları göstərilməklə seçki məntəqələrinin, məntəqə seçki komissiyalarının siyahısını və səsvermə yerlərinin ünvanlarını ala bilər.

Qeydə alınmış namizəd dövlət orqanının, idarəsinin, təşkilatının və ya bələdiyyə orqanının, təşkilatının seçki komissiyasının hərəkəti (hərəkətsizliyi) nəticəsində ona dəymiş zərərin ödənilməsi məqsədilə Azərbaycan Respublikasının Mülki Məcəlləsinə uyğun olaraq məhkəməyə müraciət edə bilər.

Qeydə alınmış namizədin, namizədi qeydə alınmış siyasi partiyanın, siyasi partiyalar blokunun vəkil edilmiş şəxs təyin etmək hüququ vardır. Vəkil edilmiş şəxslərinin təyin edilməsi barədə namizədin yazılı ərizəsinin və ya siyasi partiyanın, siyasi partiyalar blokunun təqdimatının, habelə vətəndaşın vəkil edilmiş şəxs olmaq barədə razılıq ərizəsinin daxil olduğu gündən başlayaraq 3 gün müddətində vəkil edilmiş şəxslər qeydə alınırlar. Ərizədə və ya təqdimatda vəkil edilmiş hər bir şəxsin soyadı, adı, atasının adı, doğum tarixi, əsas iş və ya xidmət yeri, tutduğu vəzifə (bu olmadıqda fəaliyyət növü), yaşayış yerinin ünvanı, şəxsiyyət vəsiqəsinin və ya onu əvəz edən sənədin seriyası, nömrəsi və verilmə tarixi göstərilməlidir. Siyasi partiyaların, siyasi partiyalar bloklarının müvafiq təqdimatlarına Seçki Məcəlləsinin 52-ci və 64-cü maddələrində müəyyən edilən qaydalar şamil edilir.

**Bələdiyyə üzvlüyünə qeydə alınmış namizədin 3-ə qədər vəkil edilmiş şəxs təyin etmək hüququ vardır. Göstərilən şəxslər dairə seçki komissiyası tərəfindən qeydə alınır.**

Vəkil edilmiş şəxslər müvafiq seçki komissiyasından lövhəcik alırlar.

**Vəkil edilmiş şəxs qeydə alınmış namizədin seçilməsi ilə bağlı təşviqat aparır və digər bu cür fəaliyyətlə məşğul olur. Vəkil edilmiş şəxs müşahidəçi hüququna malikdir.**

Qeydə alınmış namizəd, siyasi partiya, siyasi partiyaların bloku müvafiq seçki komissiyasını xəbərdar etməklə vəkil etdikləri şəxsi istənilən vaxt geri çağıra bilər və onların əvəzinə başqalarını təyin edə bilərlər. Belə xəbərdarlıq olduqda seçki komissiyası geri çağırılan vəkil edilmiş şəxsin vəsiqəsini ləğv edir. Vəkil edilmiş şəxs qeydə alınmış namizədi, habelə siyasi partiyanı, siyasi partiyaların blokunu xəbərdar etməklə ona verilmiş vəsiqəni istənilən vaxt öz təşəbbüsü ilə müvafiq seçki komissiyasına qaytararaq öz səlahiyyətlərindən imtina edə bilər.

Vəkil edilmiş şəxslərin səlahiyyətləri müvafiq seçki komissiyasının onları qeydə aldığı gündən başlanır və seçkilərin ümumi nəticələrinin rəsmi dərc edilməsi günündən gec olmayaraq, habelə Seçki Məcəlləsinin pozulması barədə şikayət üzrə məhkəmə araşdırması gedirsə, məhkəmənin yekun qərarının qəbul edilməsi günündən gec olmayaraq, Seçki Məcəlləsinin 72.4-cü maddəsində göstərilən hallar istisna edilməklə təmsil etdikləri namizədlərin statusunun itirilməsi ilə başa çatır.

***Naxçıvan Muxtar Respublikası***
***Mərkəzi Seçki Komissiyası***

## Naxçıvan ədəbi mühitinin nümayəndələri ilə görüş keçirilib



Dünən M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika Kitabxanasında Naxçıvan Özəl Universiteti tələbələrinin naxçıvanlı şair və yazıçılarla görüşü keçirilib. Tədbiri kitabxananın direktoru, tarix üzrə fəlsəfə doktoru Aytəkin Qəhrəmanova acaraq tədbirin mahiyyətindən danışıb. Qeyd olunub ki, Azərbaycan tarixində folkloru, elmi, incəsənəti, memarlığı, hərb sənəti, dövlətçiliyi və digər sahələri ilə seçilən qədim Naxçıvan diyarının müxtəlif dövrlərdə özünəməxsus ədəbi mühiti də formalaşıb. Bu ədəbi mühitin müxtəlif dövrlərdəki nümayəndələrinin yaradıcılığında milli və mənəvi dəyərlərə hörmət, vətənpərvərlik hissinin təbliği, doğma el-obaya məhəbbət mövzuların əsas xəttini təşkil edib.

Bildirilib ki, müasir dövrdə də ədəbi qüvvələrimiz böyük bir ziyalı potensialı olmaqla müasir tariximizi ədəbiyyatda əks etdirmək funksiyasını yerinə yetirirlər. Xüsusilə muxtar respublikamızın bugünkü sürətli inkişafı, təbiətin bu diyara bəxş etdiyi təbii gözəlliklər şair və yazıçılarımızı bir daha bu gözəllikləri vəsf etməyə çağırır.

Tədbirdə poeziya nümayəndələri çıxış edərək öz şeirlərinin bir qismini bədii qiraət edib və oxucuları maraqlandıran sualları cavablandırıblar.

Sonda tələbələrin və kitabxana əməkdaşlarının təqdimatında şairlərin yaradıcılığından nümunələr səsləndirilib, "Naxçıvan ədəbi mühiti" adlı sərgiyə baxış olub.

**Sona MİRZƏYEVA**

## Basketbol üzrə muxtar respublika birinciliyinə start verilib

Dünən Naxçıvan şəhərindəki İlham Əliyev adına Olimpiya-İdman Kompleksində Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyinə həsr edilmiş kişilər arasında basketbol üzrə muxtar respublika birinciliyinə start verilib. Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Basketbol Federasiyasının birgə təşkil etdiyi birinciliyin əsas məqsədi muxtar respublikada basketbol idman növünün inkişaf etdirilməsi, qabiliyyətli basketbolçuları üzə çıxarmaq, həmçinin yığmanın heyətini müəyyən edib Azərbaycan çempionatında iştirakı təmin etməkdir.

Dövlət Himninin səsləndirilməsindən sonra yarışın açılış mərasimində çıxış edən Gənclər və İdman Nazirliyinin Kütləvi bədən tərbiyəsi və idman şöbəsinin müdiri Taleh İbrahimov keçirilən tədbirin mahiyyəti haqda məlumat verdi, basketbolçulara uğurlar arzuladı.

Birinciliyin reqlamentinə əsasən, 8 komanda iki yarımqrupda mübarizə aparır. Birinci qrupda "Naxçıvan", Naxçıvan Özəl Universitetinin komandası, "Babək" və "Şərur", ikinci qrupda isə "Ordubad", "Culfa", "Sədərək" və "Lokomotiv" komandaları qərarlaşıb. Yarışın əsasnaməsinə əsasən, qruplarda ilk yerləri tutan komandalar final görüşündə üz-üzə gələcəklər. İkinci pillənin sahibləri isə üçüncülük uğrunda meydana çıxacaqlar.



Qeyd edək ki, üçüncülük və final görüşü noyabrın 28-də keçiriləcək. Qaliblərə kubok, diplom və qiymətli hədiyyələr təqdim olunacaq.

**Ceyhun MƏMMƏDOV**

## Azərbaycan Respublikası Təhsil Nazirliyi

*Naxçıvan Müəllimlər İnstitutu kafedra müdiri və kafedralarda boş olan vəzifələri tutmaq üçün müsabiqə elan edir*

1. Dillər və ədəbiyyat kafedrası – kafedra müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent
2. Dillər və ədəbiyyat kafedrası – professor, filologiya üzrə elmlər doktoru – 1 yer (1 ştat)
3. Dillər və ədəbiyyat kafedrası – dosent, filologiya üzrə fəlsəfə doktoru – 1 yer (1 ştat)
4. Dillər və ədəbiyyat kafedrası – baş müəllim, filologiya üzrə fəlsəfə doktoru– 1 yer (1 ştat)
5. Dillər və ədəbiyyat kafedrası – baş müəllim – 1 yer (1 ştat)
6. Pedaqogika və psixologiya kafedrası – baş müəllim, filologiya üzrə fəlsəfə doktoru – 1 yer (1 ştat)
7. Pedaqogika və psixologiya kafedrası – baş müəllim – 3 yer (3 ştat)
8. Riyaziyyat və tədrisi metodikası kafedrası – kafedra müdiri, dosent, pedaqogika üzrə fəlsəfə doktoru
9. Riyaziyyat və tədrisi metodikası kafedrası – dosent, pedaqogika üzrə fəlsəfə doktoru – 1 yer (1 ştat)
10. Riyaziyyat və tədrisi metodikası kafedrası – baş müəllim – 1 yer (1 ştat)
11. Ali riyaziyyat və informatika kafedrası – baş müəllim – 1 yer (1 ştat)
12. Ümumi fənlər kafedrası – dosent, tibb üzrə fəlsəfə doktoru – 1 yer (0,5 ştat)
13. Ümumi fənlər kafedrası – baş müəllim – 1 yer (1 ştat)
14. Humanitar və təsviri incəsənət kafedrası – baş müəllim – 1 yer (1 ştat)
15. Humanitar və təsviri incəsənət kafedrası – baş müəllim – 1 yer (0,5 ştat)

Müsabiqə üçün sənədlər bu elan qəzetdə dərc edildiyi gündən bir ay müddətində müvafiq qaydada qəbul olunur.

***Ünvan: Naxçıvan şəhəri, Heydər Əliyev prospekti, Naxçıvan Müəllimlər İnstitutu***
***telefon: 545-32-02***
***Rektorluq***


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 4020. Sifariş № 994